

İNAM İNDEKSİ / 01

Oktyabr / 2019

# STM

## “Prezidentin fəaliyyəti ictimai rəydə”

## HESABAT

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ



“Azərbaycanda şəffaflıq, dürüstlük hər bir dövlət məmuru üçün həyat tərzi olmalıdır”

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

## İNAM İNDEKSİ
Xüsusi buraxılış

Oktyabr 2019

## PREZİDENTİN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ

**HESABAT**


**Tədqiqat qrupu:**
İctimai rəyin öyrənilməsi departamenti
Sosial-iqtisadi təhlil departamenti
Daxili siyasətin təhlili departamenti


Bakı - 2019

## Sosial Tədqiqatlar Mərkəzi haqqında

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır. STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.


**Ünvan:**
Azərbaycan Respublikası, AZ 1006, Bakı şəhəri,
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.

**Telefon:** (+994 12) 510-70-78
(+994 12) 510-23-75
(+994 12) 510-70-69

**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az



**Buraxılışa məsul:** Elşad Mirbəşir oğlu

**Redaktor:** Aqşin Məmmədov

**Dizayner:** Qurban Cəlilov

Nəşriyyat: “Şərq-Qərb”
Çapa imzalanıb:
Nəşrin ölçüsü:
Fiziki çap vərəqi:
Tiraj:



© Sosial Tədqiqatlar Mərkəzi, 2019

# Mündəricat

## Sorğunun nəticələrinə dair hesabat


1 **Giriş**........................................................................ **4**
Sorğunun məqsədi və vəzifələri, metodoloji prinsipləri, respondentlərin sosial-demoqrafik kriteriyalar üzrə qruplaşdırılması

**2** Nəticələrin təhlili................................................... **9**
Oktyabr ayında baş verən hadisələri qiymətləndirmə, kadr və struktur islahatlarından vətəndaşların gözləntiləri, ictimai rəyin ölkə Prezidentinin fəaliyyətində rolu

**4** NƏTİCƏ........................................................................ **21**

## İCMAL

Sosial Tədqiqatlar Mərkəzi tərəfindən aparılan ölkə Prezidentinin fəaliyyəti haqqında ictimai rəyin aylıq monitorinqinin nəticələrinə görə, oktyabr ayı ərzində İlham Əliyevin reytinqində yüksəlmə müşahidə olunub. Mərkəz tərəfindən keçirilmiş sorğunun nəticələri göstərdi ki, Prezident İlham Əliyevin oktyabr ayı ərzində beynəlxalq və daxili müstəvidəki fəaliyyəti əhali tərəfindən milli maraqların qorunması, ümummilli rifahın təmin olunması baxımından olduqca təsirli və əhəmiyyətli hesab olunur. Yəni Prezidentin oktyabr ayındakı fəaliyyəti onun ictimai rəydəki pozitiv imicini daha da gücləndirib. Ümumilikdə, hər 20 respondentdən 19-da Prezidentə inam və etimad mövcuddur.

➢ Prezidentin oktyabrın 3-də "Valday" Diskussiya Klubunun plenar iclasındakı çıxışı zamanı "Qarabağ Azərbaycandır və nida işarəsi" deməsi əhalidə vətənpərvərlik hissini gücləndirib, dövlət başçısına olan inam və etibarı artırıb. Bu, rəyi soruşulanların **85,8%**-nin fikridir. **76,9%** isə hesab edir ki, Prezidentin "Valday" Diskussiya Klubunun plenar iclasındakı çıxışı Ermənistanın beynəlxalq müstəvidə mövqelərinin zəiflədilməsi baxımından təsirli oldu. Ümumiyyətlə, respondentlərin təxminən **85%-i** Prezidentin "Valday" Diskussiya Klubunun plenar iclasındakı çıxışının əhəmiyyətini yüksək qiymətləndirib.

➢ Prezidentin oktyabrın 11-də Aşqabadda MDB Dövlət Başçılarının Sammitindəki çıxışı rəyi soruşulanların **85%-i** tərəfindən rəğbətlə qarşılanıb. Ermənistanın baş nazirinin də iştirak etdiyi tədbirdə Azərbaycan Prezidentinin Ermənistanı tutarlı arqumentlərlə faşizmi qəhrəmanlaşdırmaqda ittiham etməsi və qarşı tərəfin mahiyyətsiz cavabı göstərdi ki, Prezident İlham Əliyev hücum diplomatiyasını uğurla davam etdirir. Rəyi soruşulan hər 5 respondentdən dördünün fikrincə, Prezident İlham Əliyevin Aşqabadda MDB Dövlət Başçılarının Sammitindəki çıxışı faşizm ideyalarını dəstəkləyən Ermənistanın ifşası istiqamətində tutarlı addım oldu. **80,1%** bu çıxışın münaqişənin tənzimlənməsi istiqamətində də təsirli olacağı qənaətindədir.

➢ Prezidentin oktyabrın 15-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündəki və oktyabrın 25-26-da Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündəki çıxışları da Azərbaycanın beynəlxalq imicinin möhkəmləndirilməsi, münaqişə vəziyyəti ilə bağlı həqiqətlərin - Azərbaycanın haqlı mövqeyinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması baxımından çox əhəmiyyətli hesab edilir.

➢ Prezidentin oktyabr ayında həyata keçirdiyi struktur və kadr islahatlarından respondentlərin gözləntiləri kifayət qədər böyükdür. Sorğunun nəticələri Prezident tərəfindən həyata keçirilən islahatlara respondentlərin inamının ən yüksək səviyyədə olduğunu göstərdi. Ümumilikdə, respondentlərin **87,6%-i** Prezidentin həyata keçirdiyi islahatları dəstəkləyir, onu əhəmiyyətli hesab edir.

➢ Prezidentin daxili müstəvidəki fəaliyyətinin ən yüksək qiymətləndirildiyi sahələrdən biri də ordu quruculuğudur. Belə ki, rəyi soruşulanların **92,7%-i** Prezidentin ordu quruculuğu sahəsində uğurlu fəaliyyətini

qeyd edib. **92,4%** respondent isə ölkə Prezidentinin xarici siyasi fəaliyyətini uğurlu hesab edir.

➢ Oktyabr ayında keçirilən rəy sorğusu göstərdi ki, Prezidentin kadr islahatlarına ictimai dəstək getdikcə daha da artır. Belə ki, cari ilin iyun ayında bu dəstək **74%** təşkil etdiyi halda, oktyabr ayında **86,5%**-ə bərabər olub. **Bu da ondan xəbər verir ki, davamlı kadr islahatları vətəndaşlar tərəfindən ümummilli rifahın təmin olunmasının alternativsiz yolu kimi qiymətləndirilir.**

➢ Respondentlərin cavablarına əsasən demək olar ki, qeyri-neft sektoru ilə bağlı müvafiq hökumət strukturlarının fəaliyyətinin daha da yaxşılaşdırılmasına ehtiyac var. Belə ki, bu istiqamətdə bir çox işlər görülsə də, hələ də çatışmazlıqlar, problemlər qalmaqdadır.

➢ Ümumilikdə, rəyi soruşulanların **83,7%**-i hesab edir ki, ölkə Prezidenti tərəfindən həyata keçirilən kadr və struktur islahatları onların gözləntilərini doğruldur. Kadr islahatları zamanı gənclərə üstünlük verilməsi xalqın gözləntilərinə tamamilə uyğundur. Respondentlərin **86,9%**-i ölkə Prezidentinin müvafiq yanaşmasını dəstəkləyir. Bu, bir daha onunla əlaqələndirilir ki, Prezident həyata keçirdiyi islahatlar zamanı xalqın rəyini nəzərə alır. Respondentlərin 88%-nin bu mövqedən çıxış etməsi xalqla lider arasında etibarlı bağların olmasından xəbər verir.

Tədqiqatlar göstərir ki, islahatların dərinləşməsi və geniş miqyas alması ilə Prezidentə olan ictimai rəğbətin və dəstəyin artması arasında dərin bağlılıq var. Göründüyü kimi, respondentlərin əksəriyyəti "Azərbaycanda dövlət siyasətinin mərkəzində insan amili dayanır" prinsipinin reallıqda təzahürünü təsdiqləyir. Sorğunun nəticələrinə istinadən qeyd etmək olar ki, respondentlər ölkə Prezidentinin öz fəaliyyətində onların maraqlarından, tələbatlarından və gözləntilərindən çıxış etdiyi qənaətindədirlər. Beynəlxalq müstəvidəki uğurlar və daxili siyasətdəki islahatların dərinləşməsi Prezidentin adı və şəxsi təşəbbüsləri, nümunələri ilə bağlı olduğu üçün onun reytinqi ictimai rəydə yüksələn xətt üzrə dinamika nümayiş etdirir və **bu tendensiya islahatların davam etməsi fonunda güclənir.**

## Oktyabr ayının yekunları Prezidentin ictimai rəydə reytinqinin yüksəldiyini göstərir

Müstəqil Azərbaycan milli dövlət quruculuğu tarixində öz miqyası və dərinliyi baxımından görünməmiş islahatlar mərhələsini yaşayır. Ölkəmizdə həyata keçirilən "Yeni Kurs" siyasəti əhatə dairəsinə, struktur-institusional mahiyyət daşımasına, ardıcıllığına və qarşıya qoyulan hədəflərə görə yerli və dünya elmi ictimaiyyətinin, regional dairələrin və beynəlxalq medianın daim diqqət mərkəzindədir.

Şübhəsiz ki, Azərbaycan xalqının, cəmiyyətin fikir və rəyləri hakimiyyət üçün müstəsna əhəmiyyətə malikdir. Prezident oktyabrın 15-də keçirilən müşavirədəki çıxışında dövlətin fəaliyyətində ictimai rəyin nəzərə alınmasının yeni idarəçilik fəlsəfəsinin bir nömrəli tələbi, XXI əsrin sürətlə dəyişən kommunikasiya şərtlərinin ən həlledici amillərindən olduğunu xüsusi olaraq vurğulayıb.

Öz sürəti və intensivliyinə görə, böyük zaman kəsiyində deyil, az qala hər gün baş verən dəyişiklikləri əhatə edən yeni münasibətləri tədqiq etmək, Azərbaycan dövləti və xalqı arasında meydana çıxan mühüm əlaqələrin mahiyyətini düzgün müəyyənləşdirmək vəzifəsi qarşısında olan Sosial Tədqiqatlar Mərkəzi (STM) ardıcıl olaraq müxtəlif mövzularda millətimizin bu günü və gələcəyi ilə bağlı sosioloji araşdırmalar və sorğular həyata keçirir. Təqdim edilən indiki tədqiqatın hədəfi islahatlarla bağlı ictimai rəyin aylıq monitorinqi, eləcə də ölkə Prezidentinin oktyabr ayındakı fəaliyyətinin əsas məqamlarına dair ictimai rəyi müəyyənləşdirmək, həmçinin onun əsasında gələcək prosesləri daha operativ izləməkdən ötrü mühüm elmi araşdırmalar və hesabatlar hazırlamaqdır.

Başa vurduğumuz oktyabr ayını əhatə edən, sorğu əsaslı analitik hesabatın məqsədi - əhalinin dövlət başçısının islahatlar siyasətinin gedişatı və ölkədəki ictimai-siyasi vəziyyət barədə rəyini operativ öyrənmək, eləcə də dövlət rəhbərinin oktyabr ayı ərzində regional və beynəlxalq formatlı görüşlərinə, çıxışlarına və diplomatik danışıqlarına geniş ictimai reaksiyaları tədqiq etmək, həmçinin cari siyasi-sosial proseslərin dinamikasını müəyyənləşdirmək baxımından müstəsna əhəmiyyət daşıyır.

Burada ictimai fikri ortaya çıxaran barometr həm də dövlət və vətəndaş birliyinə mane olan əngəlləri, zamanın çağırışlarına cavab verməyən idarəetmə vərdişlərini və stereotiplərini aradan qaldırmaq məramı daşıyır.

Sorğunun və təhlillərin oktyabr ayına həsr olunması da təsadüfi deyildir. Çünki 2019-cu ilin başlanması ilə start götürən və sonrakı dövrdə daha da intensivləşən islahatlar kursu məhz son aylarda təkcə hökuməti və iqtisadi-maliyyə qurumlarını deyil, bütün hakimiyyət qollarını əhatə etmiş, dəqiq strateji xətt üzrə aparıldığına insanları inandıra bilmişdir.

Ötən on illər ərzində Azərbaycanın mühüm beynəlxalq siyasi-iqtisadi subyektə çevrilməsi və ətrafında vacib təhlükəsizlik platformasının qurulması məhz bu il bütün dövlət orqanları qarşısında daha da tələbkar vəzifələrin qoyulmasını mümkün etmişdir. Yeni təfəkkür tərzinə dair irəli sürülən prinsiplər, böyük sahibkarlar ordusuna münasibətdə yalnız qanuni normaların əsas götürülməsi üçün

sərt çağırışlar, haqsız rəqabətin aradan qaldırılması tələbləri, şəffaf büdcə planlaşdırılması və onun icrası, yerli məmurların vətəndaşlar qarşısında daşıdıqları məsuliyyət, eləcə də korrupsiya hallarına və digər özbaşınalıqlara qarşı barışmaz münasibət hər bir sadə azərbaycanlının ürəyindən olmaqla sübut edir ki, ölkədə həyata keçirilən siyasətin məqsədi bütün xalqımızın həyatını daha da yaxşılaşdırmağa xidmət etməkdədir.

2019-cu ilin oktyabr ayı ölkəmizin siyasi təqvimində, daxili və xarici siyasətində müstəsna əhəmiyyət kəsb edən və xüsusi çəkiyə malik olan tarixi hadisələrin yer aldığı mühüm yolayrıcıdır.

Aydın görünən mənzərə bundan ibarətdir ki, dövlət başçısının həm daxili, həm də xarici siyasət sahəsindəki fəaliyyəti sayəsində dünyanın nəzərləri Azərbaycana və onun paytaxtı Bakıya yönəlmişdir. Oktyabr ayı ərzində Soçidə və Aşqabadda keçirilən mühüm əhəmiyyətli beynəlxalq tədbirlərdə ölkə Prezidentinin nümayiş etdirdiyi prinsipial mövqe, Qoşulmama Hərəkatına üzv olan dövlətlərin zirvə toplantısı, eləcə də dərinləşən kadr islahatları Azərbaycanın beynəlxalq münasibətləri, həmçinin siyasi, iqtisadi və sosial sahədəki dəyişikliklər tarixinə mühüm hadisələr kimi daxil olacaqdır.

Həmin hadisələr nəticəsində Azərbaycanın iqtisadi inkişafı və sosial rifahı, ictimai-siyasi sabitliyi təmin edilib, beynəlxalq münasibətlər sistemində nüfuzu qorunub, eyni zamanda, daha da güclənməsi təmin edilib.

STM-in apardığı araşdırmalar göstərir ki, respondentlərin - Azərbaycan vətəndaşlarının əksəriyyəti dövlət və milli həyatı yaxından izləyərək miqyasından asılı olmayaraq hər bir hadisəni diqqət mərkəzində saxlayır, xüsusilə ölkə başçısının fəaliyyətinə həssaslıqla, inam və etibarla yanaşmaqda davam edir. Daha dəqiq desək,

**Xarici siyasət sahəsində:**

- Prezidentin oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxışı - "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı, oktyabrın 11-də MDB Dövlət Başçılarının Aşqabadda keçirilən sammitində, oktyabrın 15-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündə, oktyabrın 25-26-da dünyanın üçdə ikisini təşkil edən Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə Görüşündə çıxışı böyük əks-səda doğurdu. Prezidentin dünya siyasi liderlərinin iştirak etdiyi görüşləri hədəf auditoriya kimi seçərək, Azərbaycan-Qarabağ həqiqətlərini dünyanın qlobal platformalarından səsləndirməsi gündəm yaratdı;
- Prezidentin möhkəm iradəsi və güclü intellektual təfəkkürünün vəhdətini ifadə edən, dövlətə rəhbərliyinin ən müdrik çağına qədəm qoymasını sübut edən çağırışları cəmiyyətdə milli birliyə və ruh yüksəkliyinə, vətənpərvərliyə transformasiya edilən "dalğa effekti" doğurdu və həmin ictimai reaksiyalar hazırda da davam edir.

**Daxili siyasət sahəsində:**

- 2019-cu il 15 oktyabr tarixli müşavirədə Prezidentin "İslahatlar dönməzdir!" çıxışı islahatlar tarixinə dönüş nöqtəsi kimi yazılıb;
- Dövlət başçısının 15 oktyabr tarixli müşavirədəki çıxışı və səsləndirdiyi mesajlar ictimai rəydə böyük canlanma yaradıb. "İslahatlar dön-

məzdir" fikri siyasi çəki və sanbal baxımından Heydər Əliyevin "Müstəqilliyimiz dönməzdir!" bəyanatı ilə bir sırada dura bilər;

- İslahatların fokus nöqtəsinin yeni və təkmil, çevik və rəqabətədavamlı dövlət idarəçiliyini formalaşdıran kadr islahatlarının olması aydın nəzərə çarpır;
- Kadr islahatlarında başlıca meyarın - xalqa xidmətin prezident örnəyi olması, yeni nəsil məmur tipinin bu meyar əsasında təyinatı və dəyərləndiriləcəyi bir daha nümayiş olunur;
- Dövlət başçısı islahatlarla bağlı siyasi kursunu gerçəkliyə çevirən ali rəsmi qərarların verilməsini, müvafiq fərmanların imzalanması ənənəsini davam etdirib, eyni zamanda, prezidentin iş kabineti, qəbullar və müşavirələrin yeni üslub, yanaşma və nəticəlilik baxımından fərqli formatının nümayiş olunması yuxarıdan aşağıya doğru bütün idarəçilik pillələrində millətə xidmətin yeni nümunələrinin yaradılmasını sübut edir;
- Dövlətə sədaqətlə xidmət edən rəsmi şəxslərin yeniləri ilə əvəzlənməsi prosesində, onları qəbul etməklə, Azərbaycana "yeni siyasi mədəniyyət" örnəyini gətirməyə nail olunub;
- İslahatların coğrafiyası genişlənib. Yalnız ölkəmizin paytaxtını, ali icra orqanlarını deyil, həmçinin regionları da əhatə edən, ənənəvi təsəvvürləri dağıdan köklü kadr islahatlarına start verilib, yeni təyinat alanlar üçün islahatlar "sınaq meydanı" rəmzini ifadə edir;
- Prezident regionlarda icra rəhbərlərinin xalqa xidmətinin yeni meyarlarını, yeni indikatorlarını bəyan edib. Xalqın etibar və məmnunluq göstəricisinin ön sırada durduğunu diqqətə çatdırıb;
- Xüsusilə vurğulanmalıdır ki, xarici siyasətdə və ölkədaxili ictimai-siyasi həyatda bütün müsbət dinamika "payız ssenariləri, payız kabusu və dünyada baş verən real payız sindromu" (onlarla ölkədə eyni vaxtda baş verən qlobal etiraz dalğası) fonunda mümkün olmuşdur. Ölkəmizdə baş verən dəyişikliklər "küçə və meydanlarda" deyil, vətəndaş qarşıdurmaları hesabına yox, Birinci şəxsin qələminin mürəkkəbi, güclü siyasi iradəsi ilə baş tutur və dünyadakı qeyri-sabitlik dalğasından yan keçərək Azərbaycanı hamı üçün güvənli bir məkana çevirir.

Təqdim edilən sənəd Sosial Tədqiqatlar Mərkəzi tərəfindən oktyabr ayında baş verən əsas hadisələrə ölkə əhalisinin münasibətini öyrənmək məqsədi ilə keçirilmiş rəy sorğusu əsasında hazırlanmışdır.

## SORĞUNUN METODOLOJİ PRİNSİPLƏRİ

**Respondentlərin seçimi:**

- Keçirilən ictimai rəy sorğusunda ümumilikdə 1316 respondent iştirak edib.
- Sorğu ümumilikdə 14 "ASAN xidmət" mərkəzində (1,2,3,4 saylı Bakı və Sumqayıt, Bərdə, Gəncə, Sabirabad, İmişli, Mingəçevir, Masallı, Quba, Qəbələ, Şəki "ASAN xidmət" mərkəzləri) keçirilib. Regional "ASAN xidmət" mərkəzlərinin seçilməsində məqsəd ölkə üzrə əhatəliliyi təmin etmək idi. Belə ki, müvafiq bölgə üzrə regional "ASAN xidmət" mərkəzlərinə həmin ərazinin vətəndaşları ilə yanaşı, ətraf rayonların sakinləri də xidmət üçün müraciət edirlər.
- Respondentlərin seçimi təsa-

düfi qaydada aparılıb. STM intervüyerləri şəxsiyyət vəsiqəsi, kommunal və notarius xidmətlərindən istifadə etməyə gəlmiş hər ikinci vətəndaşa yaxınlaşıb. Bu üç xidmətin seçilməsində məqsəd təsadüfiliyi - reprezentativliyi təmin etmək idi. Çünki bu xidmətlərdən əhalinin bütün sosial-demoqrafik qruplarının istifadə etmək ehtimalı bərabərdir. Statistik xəta əmsalı 3%-dir.

- Genişmiqyaslı tədqiqatdan öncə 3 "ASAN xidmət" mərkəzində (2, 4 saylı Bakı və Sumqayıt "ASAN xidmət" mərkəzi) əhalinin müxtəlif sosial və demoqrafik qruplarını təmsil edən 60 respondent arasında sınaq tədqiqatı keçirilib. Sınaq nəticəsində anketdə lazımi düzəlişlər və əlavələr edilib.

**Sorğunun aparılması üsulu**

Sorğunun aparılmasında "üz-üzə" müsahibə üsulundan istifadə olunub. Sorğunun keçirilməsində müasir texnologiya tətbiq edilib. Belə ki, sorğular ənənəvi üsul olan kağız formatında deyil, planşetlər vasitəsilə həyata keçirilib. Son illər müxtəlif dünya ölkələrində daha geniş tətbiq edilən və müasir sorğu proqramı kimi qəbul olunan SurveyToGo proqramından istifadə edilib. Bu proqram geniş coğrafiyalarda sahəvi işə nəzarət etmək, sorğu prosesinə onlayn müşahidəni əldə saxlamaq və etibarlı informasiya almaq baxımından çoxlu üstünlüyə malikdir.

Sahə işi 2019-cu ilin oktyabrın 29-dan noyabrın 5-dək olan dövrdə keçirilib. Sorğunun bu müddətdə keçirilməsinin səbəbi vətəndaşların oktyabr ayı üçün rəyinin ətraflı şəkildə öyrənilməsini təmin etmək olub.

**Məlumatların işlənilməsi və təhlili**

Sorğu başa çatdıqdan sonra hər bir anket üzrə toplanılan məlumatlar bazaya daxil edilərək xüsusi proqram SPSS - Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi) vasitəsilə təhlil edilib. Təsviri analizlərlə yanaşı, dəyişənlər arasında bir sıra korrelyasiyalar da (əlaqələr) müəyyənləşdirilib.

Yuvarlaqlaşdırma səbəbindən diaqramlarda faizlərin cəmi 100%-dən fərqli ola bilər.

**Anket**

Anket 13 əsas, 5 demoqrafik sualdan ibarət olub. Suallar əsasən bu istiqamətlərdə olub:

- Prezidentin beynəlxalq arenada Ermənistanın işğalçı mövqeyi və Dağlıq Qarabağ problemləri barədə çıxışları,

- Oktyabr ayında imzalanan sərəncamlar əsasında baş vermiş kadr dəyişiklikləri və struktur islahatları,

- Prezidentin fəaliyyətinin müxtəlif istiqamətlər üzrə dəyərləndirilməsi.

## NƏTİCƏLƏRİN TƏHLİLİ

**Demoqrafik göstəricilər**

Sorğuda iştirak edən 1316 respondentin 67,6%-i kişi, 32,4%-i qadındır. Respondentlər arasında yaş qrupu olaraq əsas pay 26-35 yaş qrupuna aiddir (34,3%). İkinci sırada 36-50 yaş qrupu dayanır (29,5%). Təhsil səviyyəsinə görə tam orta təhsilli respondentlər üstünlük təşkil edir - 45,1%. Ali təhsillilər isə 31,7% paya sahibdir. Seçmə məcmusundakı respondentlərin 14,9%-i işsiz olduğunu qeyd edib. Respondentlərin 14,7%-ni evdar qadınlar təşkil edir. Hazırda iş sahibi olanların 21,1%-i özəl sahədə, 22,4%-i dövlət sektorunda işləyir. Fərdi əmək fəaliyyəti ilə məşğul olanların seçmə məcmusundakı payı 10,1%-ə bərabərdir.

*Respondentlərin müxtəlif kriteriyalar üzrə qruplaşdırılması*




Prezidentin oktyabrın 3-də “Valday” Diskussiya Klubunda etdiyi çıxışın vətəndaşlar tərəfindən necə qarşılanması, Ermənistanla gedən siyasi-informativ savaşın bu raundunun qiymətləndirilməsinin təkcə hissi-emosional deyil, həmçinin daimi birləşdirici milli ideyaya çevrilməsinin reallığını yoxlamaq üçün ilk olaraq respondentlərə ‘’Valday” Diskussiya Klubunun toplantısında Prezidentin “Qarabağ Azərbaycandır və nida işarəsi” deməsi sizin üçün nə dərəcədə əhəmiyyətlidir?” sualı verilib. Ümumilikdə, respondentlərin **84,9%-i** bu mesajın mühüm əhəmiyyətə malik olduğunu qeyd edib.

Respondentlərin 7,8%-nin “əhəmiyyətli deyil” cavabını verməsi, eləcə də 7,4% respondentin “cavab verməkdə çətinlik çəkməsi” onların özlərini sosial məsələlərlə müqayisədə siyasi proseslərdən kənar saxlamaq istəkləri və məlumatsızlıqları ilə bağlıdır.

Prezidentin Aşqabadda Ermənistanın faşizmi qəhrəmanlaşdırmasına qarşı qətiyyətli etiraz nitqi 85% respondent tərəfindən “əhəmiyyətlidir” kimi yüksək qiymət almışdır.

Əvvəlki nəticə ilə müqayisədə 1 faizlik fərqdən göründüyü kimi, Ermənistan rəhbərinin şəxsən iştirak etdiyi tədbirdə belə sərt mövqe “Birinci şəxs hücum strategiyasını həyata keçirir, bu, hər bir vətəndaşın istənilən növ faşizmə və torpaq işğalçılığına qarşı mübarizə idealına çevrilməlidir” ideyasının təsdiqidir. Yalnız 6,2% sorğu iştirakçısı üçün bu çıxışa münasibət “əhəmiyyətli deyil” formasında ifadə olunub. Hər 10 nəfərdən biri bu haqda fikir bildirməkdə çətinlik çəkib.

Prezidentin Soçi və Aşqabad çıxışları ilə müqayisədə Türk Şurasının Bakı zirvəsi **80,9%** respondent üçün “bu və ya digər dərəcədə əhəmiyyətlidir” kateqoriyasında cavab alıb.

Burada T-testinə əsasən $(t=2.173(1213), p<0.05)$ qadınlara

nisbətdə Türk Şurasının Bakı zirvəsi kişilər üçün "daha əhəmiyyətlidir". Bu rəqəmlər göstərir ki, respondentlərin əksəriyyəti Prezidentin işğal altında olan ərazilərimizin azad olunması istiqamətindəki səylərini, o cümlədən diplomatik və ideoloji müstəvidə həyata keçirdiyi siyasəti dəstəkləyir.

Ümumilikdə **87,6%** respondentin köklü struktur və kadr islahatlarını əhəmiyyətli hesab etməsi göstərir ki, respondentlər ölkəmizin həyatına aid olan beynəlxalq xarakterli məsələlərlə yanaşı, həm də daha çox daxili dəyişikliklərə yüksək həssaslıqla yanaşır, onlardan mühüm nəticələr gözləyir. Bir sözlə, ölkəmizin həyatında yuxarıdan başlayan inqilabi dəyişikliklərin müdafiəsi və islahatlara göstərilən ümumxalq inamı heç zaman indiki səviyyəyə malik olmamışdır.

**Respondentlərin 87,6%-i köklü struktur və kadr islahatlarını əhəmiyyətli hesab edir.**

*Diaqram 1. Oktyabr ayında baş verən hadisələrin əhəmiyyətini necə qiymətləndirirsiniz?*




Yəni oktyabr ayında baş verən adı çəkilən hər bir hadisənin sorğuda iştirak edən 1316 nəfər üçün "bu və ya digər dərəcədə əhəmiyyətli olması" söylənilənləri təsdiq edir.

Prezidentin beynəlxalq arenadakı çıxışları ilə bağlı respondentlərə 3 tezis təqdim olunub və bu fikirlərlə nə dərəcədə razı olub-olmadıqları öyrənilib. Respondentlərin əksəriyyəti **(76,9%)** müxtəlif dərəcələrdə düşünür ki, Prezidentin "Valday" klubundakı çıxışı Ermənistanın beynəlxalq məkanda mövqeyini zəiflətdi. Həmçinin, hər 5 respondentdən 4-ü

**Respondentlərin 76,9%-i düşünür ki, Prezidentin "Valday" Beynəlxalq Diskussiya Klubundakı çıxışı Ermənistanın mövqeyini zəiflətdi.**

‘‘Prezidentin Aşqabaddakı sərt mövqeyi rəsmi İrəvanın faşizmi dövlət siyasətinə çevirdiyini üzə çıxartdı’’ fikri ilə bu və ya digər dərəcədə razı olduğunu bildirib. Təxminən eyni sayda respondent **(80,1%)** məlum çıxışların Qarabağ probleminin həllində müəyyən qədər irəliləyişə səbəb olacağını düşünür.

*Diaqram 2. Prezidentin beynəlxalq arenadakı çıxışları ilə nə dərəcədə razısınız?*




Yuxarıda qeyd olunan məsələlərə respondentlərin müəyyən hissəsinin cavab verməkdə çətinlik çəkməsinə səbəb vətəndaşlar arasında məlumatlılıq səviyyəsinin nisbətən aşağı olmasıdır. Çünki informasiyaların alınması yalnız rəsmi xəbərlər vasitəsilə məhdudlaşmamalıdır. Bu mövzular müxtəlif formatlı debat və diskussiyalarda, ictimai dinləmələrdə az müzakirə edildiyi üçün insanlar ona əhəmiyyətli məsələ kimi deyil, adi məlumat kimi yanaşır.

“Valday” Diskussiya Klubunun toplantısında Prezidentin “Qarabağ Azərbaycandır və nida işarəsi” deməsi 50,2% respondentin vətənpərvərlik hissini, 35,6% respondentin isə dövlət başçısının gücünə olan inam və etibarını daha da artırıb. 9% respondentdə bu çıxış hər hansı bir hiss oyatmamaqla yanaşı, 5,9% respondent hisslərini ifadə etməkdə çətinlik çəkib.

Prezidentin müxtəlif istiqamətlərdəki fəaliyyətinin qiymətləndirilməsi sualı maraqlı nəticələrlə müşayiət edilib. Ordu quruculuğu istiqamətində Prezidentin ümumi fəaliyyəti digər istiqamətlərlə nisbətdə ən yüksək müsbət rəy alıb. Belə ki, respondentlərin mütləq əksəriyyəti **(92,7%)** Prezidentin ordu quruculuğu istiqamətindəki fəaliyyətini müsbət qiy-

**Respondentlərin mütləq əksəriyyəti (92,7%-i) Prezidentin ordu quruculuğu istiqamətindəki fəaliyyətini müsbət qiymətləndirib.**

*Diaqram 3. "Valday" Beynəlxalq Diskussiya Klubunda Prezidentin "Qarabağ Azərbaycandır və nida işarəsi" deməsi vətəndaş olaraq sizdə hansı hissləri yaratdı?*




mətləndirib. İkinci mövqedə isə Prezidentin xarici siyasət istiqamətində ümumi fəaliyyəti dayanır - 59% ''çox yaxşı'' və 33,4% ''yaxşı'' cavabını seçib.

Burada oktyabr ayında Prezidentin beynəlxalq arenadakı çıxışlarının mühüm əhəmiyyətini vurğulamaq lazımdır.

Respondentlərın əksəriyyəti **(86,5%-i)** Prezidentin kadr islahatları sahəsindəki fəaliyyətini qənaətbəxş hesab edir. İyun ayında hüquq-mühafizə və təhlükəsizlik sistemində baş verən kadr dəyişiklikləri ilə başlanan islahatların davamlılığı Prezidentin bu siyasətini dəstəkləyən vətəndaşların sayının artmasına gətirib çıxarıb. Belə ki, iyun ayında hüquq-mühafizə və təhlükəsizlik sistemində baş verən kadr dəyişikliklərini ümumilikdə 74% respondent dəstəklədiyi halda, bu göstərici oktyabr ayının sonuna 10%-dən də çox artıb.

Digər maraqlı məqam: iyun ayında həyata keçirilən kadr islahatlarına respondentlərin 15,7%-i münasibət bildirməkdə çətinlik çəkdiyi halda, oktyabr ayının sonuna olan göstəricilərdə bu rəqəm 4,3%-dir. Başqa sözlə desək, kadr islahatlarının başlanğıcında ictimai rəydə nisbi qeyri-müəyyənlik var idisə, zamanla kadr islahatlarının davamlı xarakteri vətəndaşlarda getdikcə daha çox müsbət fikirlərin formalaşmasına səbəb oldu.

Göründüyü kimi, Prezidentin sosial-iqtisadi sahədə apardığı siyasət daha çox respondent tərəfindən müsbət dəyərləndirilsə də, əsas narazılıq da məhz bu sahələrdədir. Bunu da nəzərə çatdıraq ki, sosial-iqtisadi sahədə aparılan siyasət demək olar ki, bütün vətəndaşların gündəlik yaşayışına bu və ya digər

**Respondentlərin 15,7%-i iyun ayında kadr islahatlarına münasibət bildirməkdə çətinlik çəkdiyi halda, oktyabr ayının sonuna bu göstərici 4,3%-dir.**

formada təsir göstərdiyindən, bu istiqamətdəki fəaliyyətin vətəndaş məmnuniyyətinə bilavasitə təsiri var.

Lakin hələ də sosial müdafiə və qeyri-neft sektorunun inkişafı sahələrində Prezidentin son çıxışlarında davamlı olaraq qeyd etdiyi problemlərə - məmurların fəaliyyətindən qaynaqlanan süründürməçilik, bürokratizm və korrupsiya hallarına qarşı neqativ münasibətin olduğu da üzə çıxıb. Sosial müdafiə sahəsində müvafiq qurumların, eləcə də iqtisadi-maliyyə orqanlarının fəaliyyətinin qeyri-qənatbəxş olması 13,5% respondentin mənfi rəy bildirməsinin əsas səbəbləri sayıla bilər.

Başqa sözlə, Prezidentin ordu quruculuğu və xarici siyasət istiqamətlərindəki fəaliyyəti müvafiq olaraq **92,7%** və **92,4%** respondent tərəfindən yüksək dəyərləndirilib.

Sosial müdafiə və qeyri-neft sektorunun inkişafı üçün analoji göstəricilər 80%-ə yaxındır.

ANOVA təhlili orta məktəb və peşə təhsili olanların ali təhsillilərə nisbətən Prezidentin ümumi fəaliyyətini daha yüksək qiymətləndirdiklərini müəyyən edib. Bununla bərabər, ANOVA analizinə əsasən, dövlət sektorunda çalışanlar Prezidentin ümumi fəaliyyətini özəl sektorda çalışanlara və işsiz respondentlərə nisbətdə daha yüksək qiymətləndirib. Ev və fərdi təsərrüfatla məşğul olan respondentlərin verdiyi qiymətləndirmə səviyyəsi dövlət sektorunda çalışanlara nisbətdə daha aşağı, özəl sektorda çalışanlar və işsiz respondentlərə nisbətdə daha yuxarıdır.

Qeyri-neft sektorunun inkişafı üçün analoji göstərici 13,3%-ə bərabərdir. Kənd təsərrüfatının inkişafında da oxşar mənzərənin şahidi ola bilərik. Belə ki, 13% respondent hökumətin bu istiqamətdə fəaliyyətini "qeyri-qənaətbəxş" olaraq dəyərləndirir.

Göründüyü kimi, Prezidentin sosial-iqtisadi sahədə apardığı siyasət respondentlərin əksəriyyəti tərəfindən müsbət dəyərləndirilir. Eyni zamanda, verilən qərarların icra vəziyyəti, nəzarət qurumlarının fəaliyyəti, hesabatlılıq və şəffaflıqla bağlı dövlət başçısının az qala hər çıxışında bəyan etdiyi neqativ hallarla əlaqədar vətəndaşların da müvafiq sahə ilə bağlı müəyyən narazılıqları özünü göstərir. Digər tərəfdən, "Birinci şəxs ölkədəki bütün proseslərə dəqiqliklə nəzarət edir və mötəbər məlumat mənbələrinə malikdir" fikri ictimai rəydə təsdiq olunur.

Oktyabr ayında Prezident tərəfindən həyata keçirilən kadr və struktur islahatlarından respondentlərin əsas gözləntiləri gənc nəsil üçün yeni perspektivlərin və imkanların yaranmasıdır **(58,9%)**. Təxminən hər üç respondentdən biri vətəndaşların rifahının artacağını **(38,6%)** və korrupsiyaya qarşı mübarizənin güclənəcəyini **(36,4%)** gözləyir.

Növbəti sıralarda dayanan cavabların faizləri də aşağı deyil - ''sənədsiz evlərin sənədləşdirilməsi prosesi daha şəffaf və sürətli olacaq'' (26%) və ''məmur-vətəndaş münasibətləri qanunun tələbləri çərçivəsində qurulacaq'' (23,3%). İqtisadiyyatda şəffaflıq tədbirlərinin artması ilə bağlı nəticənin (20,5%) olması bunun yeni təyinatlardan sonra qarşıdakı aylar ərzində veriləcək əsas izah, görüşlər və proqramlarla dəyişəcəyini də əvvəlcədən söyləmək mümkündür.

*Diaqram 4. Prezidentin müxtəlif istiqamətlərdəki fəaliyyətini qiymətləndirin*




*Diaqam 5: Oktyabr ayında Prezident tərəfindən həyata keçirilən kadr və struktur islahatlarından gözləntiləriniz nələrdir? (bütün uyğun variantlar)*




**Qeyd:** *Respondentlərə bir neçə cavab variantı seçmək imkanı verilib. Buna görə də alınan cavabların ümumi faizi 100%-dən artıq olub.*

Oktyabr ayında Prezident tərəfindən həyata keçirilən kadr və struktur islahatları respondentlərin əksəriyyətinin **(83,7%)** gözləntilərini doğruldub. Təxminən 11% respondent isə məlum kadr və struktur islahatlarının hələlik onların

**Respondentlərin 86,9%-nin fikrincə, hökumətdə təmsil olunan yaşlı nəslin daha gənc kadrlarla əvəz olunması vətəndaşların rifahına müsbət təsir edəcək.**

gözləntilərini doğrultmadığı qənaətindədir. Lakin respondentlərin mütləq əksəriyyəti **(86,9%)** bu məsələdə həmfikirdir ki, hökumətdə təmsil olunan yaşlı nəslin daha gənc kadrlarla əvəz olunması vətəndaşların rifahına müsbət təsir edəcək.

*Diaqam 6: Oktyabr ayında Prezident tərəfindən həyata keçirilən kadr və struktur islahatları gözləntilərinizi nə dərəcədə doğrultdu?*




Buna baxmayaraq, diqqətə çatdıraq ki, 7,4% respondentlərin fikrincə, "gəncləşdirmə siyasəti" vətəndaşların rifahında heç nəyi dəyişməyəcək.

*Diaqam 6: Hökumətdə təmsil olunan yaşlı nəslin daha gənc kadrlarla əvəz olunması vətəndaşların rifahına necə təsir edəcək?*



Sorğuda iştirak edənlərin böyük əksəriyyəti (88%) "Ölkədə gedən köklü kadr dəyişiklikləri xalqın rəyinin ölkə rəhbəri üçün əsas olduğundan xəbər verir" fikri ilə razıdır. Deməli, demokratik idarəçilik üçün vacib olan şərt burada özünü qabarıq göstərir və Prezident İlham Əliyevin xalqın vahid lideri kimi yerini qoruyub saxladığını təsdiq edir. O da nəzərə alınmalıdır ki, Prezidentin yeni təyinatlarla bağlı keçirdiyi qəbullar zamanı söylədiyi hər bir fikir ən yüksək ictimai həssaslıqla izlənilir və müsbət qarşılanır.

**Respondentlərin 88%-i "Ölkədə gedən köklü kadr dəyişikliklərində xalqın rəyi ölkə rəhbəri tərəfindən nəzərə alınır" fikri ilə razıdır.**

*Diaqram 8. "Ölkədə gedən köklü kadr dəyişiklikləri xalqın rəyinin ölkə rəhbəri üçün əsas olduğundan xəbər verir" fikri ilə nə dərəcədə razısınız?*




Yalnız 9,6% respondent bu və ya digər dərəcədə fərqli rəy və mülahizəyə malikdir. Belə ki, respondentlərin hər 10 nəfərindən biri ölkə rəhbərinin kadr dəyişiklikləri istiqamətindəki fəaliyyətində ictimai rəyi nəzərə almadığı düşüncəsindədir.

Prezidentin oktyabr ayındakı fəaliyyətinə ictimai rəydə verilən qiymət əvvəlki dövrlə müqayisədə daha yüksəkdir. Belə ki, alınan nəticələr dövlət başçısının oktyabr ayındakı fəaliyyətinin respondentlərin əksəriyyətinin **(77,5%)** ona olan inam və etimadını artırdığını göstərir. **18,5%** respondent

**Dövlət başçısının oktyabr ayındakı fəaliyyəti respondentlərin 77,5%-nin ona olan inamını daha artırmışdır. 18,5% respondentin inam və etimadı isə olduğu kimi qalmışdır.**

isə inam və etibarın əvvəlki kimi qaldığını qeyd edib. Göründüyü kimi, islahatlar gücləndikcə onu hər bir vətəndaş daha yaxşı qiymətləndirə bilir, nəticələrinə inanır və davamlılığını gözləyir. Şübhəsiz ki, dövlət rəhbərinin reytinq yüksəlişi ona hakimiyyət komandasındakı monolitliyi qoruyub saxlamağa, yeni iqtisadi platformaya keçidə və həssas sosial qrupları dövlətçilik mövqeyində saxlamağa tam şərait yaradır, müxtəlif informasiya mərkəzləri tərəfindən aparılan sistemli hücumlara müqavimət gücünü səfərbər etməkdə müstəsna rol oynayır.

Digər sual-cavabdan göründüyü kimi, hər 5 respondentdən birinin inam və etimad səviyyəsi dəyişilməz qalıb - başqa sözlə, respondentin oktyabr ayında baş verən hadisələrə qədərki inam və etimad səviyyəsi ilə indiki arasında hər hansı fərq yoxdur. Yuxarıda qeyd olunan nəticələri ümumiləşdirsək, deyə bilərik ki, hər 20 respondentdən 19-nun Prezidentə inam və etimadı mövcuddur.

*Diaqram 9. Dövlət başçısının oktyabr ayındakı fəaliyyətləri sizin ona olan inam və etimadınızı necə dəyişdi?*




Sorğuda iştirak edənlərin böyük əksəriyyəti **(84,6%)** bu düşüncədədir ki, ölkə rəhbəri öz fəaliyyətində vətəndaşların maraqlarını, tələbatlarını və rəyini nəzərə alır.

6,2% sorğu iştirakçısı qoyulan suala "əsasən razı deyiləm", 7,4% respondent isə "heç razı deyiləm" cavabını verib.

Oktyabr ayında başlanan islahatların uğurla həyata keçirilməsinə əsas maneə kimi ''məmurların qərarları düzgün yerinə yetirməməsi" (33,6%) cavabının verilməsi ciddi narahatlıq doğurur.

**İslahatların uğurla həyata keçirilməsinə əsas maneə kimi respondentlərin 33,6%-i "məmurların qərarları düzgün yerinə yetirməməsi", 24,5%-i "bəzi dövlət qurumlarının laqeyd yanaşması", 23%-i "yerli hakimiyyət orqanları/yerli məmurlar" cavablarını qeyd edib.**

*Diaqram 10. "Ölkə Prezidenti öz fəaliyyətində vətəndaşların maraqlarını, tələbatlarını və rəyini nəzərə alır" fikri ilə nə dərəcədə razısınız?*




Eynilə "yerli hakimiyyət orqanları/yerli məmurlar" (23%) və "bəzi dövlət qurumlarının laqeyd yanaşması" (24,5%) variantlarının da respondentlərin əhəmiyyətli bir hissəsi tərəfindən seçilməsi bundan xəbər verir ki, vətəndaşların nəzərində islahatların lazım olan nəti-

**Respondentlərin cəmi 7,8%-nin siyasi müxalifətin fəaliyyətini islahatlara maneə kimi görməsi onun təsir imkanlarının zəiflədiyini göstərir. Belə ki, iyun ayında bu göstərici 11,1% təşkil edirdi.**

*Diaqram 11. Ölkədə islahatların uğurlu həyata keçirilməsinə kim və nə mane ola bilər?*




***Qeyd:** Respondentlərə bir neçə cavab variantı seçmək imkanı verilib. Buna görə də alınan cavabların ümumi faizi 100%-dən artıq olub.*

cəni verib-verməməsi bilavasitə məhz dövlət orqanlarından asılıdır. Başqa sözlə, islahatların icrasından məsul qurum və şəxslərə nəzarətin güclü olmasına ehtiyac vardır. Maraqlıdır ki, “siyasi müxalifətin fəaliyyəti” cavabı az sayda respondent tərəfindən seçilib - **7,8%**. Sonuncu rəqəm göstərir ki, əks qüvvələrin islahatlara mane olmaq imkanları əvvəlki aylarla müqayisədə zəifləyib. Xatırladaq ki, iyun ayında bu göstərici **11,1%** təşkil edirdi.

İyun ayı ilə müqayisədə “yerli hakimiyyət orqanları/yerli məmurlar” variantını seçənlərin payı 17,9%-dən 23%-ə yüksəlib. Bu dəyişikliklər ondan xəbər verir ki, daha çox respondent yerli qurumlardakı məmurların islahatlara mənfi təsir edə biləcəyini düşünür. Məhz bu nəticəyə əsasən, belə bir fikir irəli sürülə bilər ki, dövlət orqanlarında idarəetmə üzrə kadr islahatlarına ölkə rəhbərinin dediyi kimi, ictimai nəzarətin gücləndirilməsinə bütün digər institutların yaxından dəstək verməsinə ehtiyac duyulur.

*Diaqram 12. Oktyabr ayını ümumilikdə ölkəmiz üçün necə qiymətləndirirsiniz?*




Sorğuda iştirak edənlərin böyük əksəriyyəti (87,6%) oktyabr ayını ölkəmiz üçün ümumilikdə uğurlu qiymətləndirib.

**Respondentlərin böyük əksəriyyəti (87,6%) oktyabr ayını ölkəmiz üçün ümumilikdə uğurlu qiymətləndirib.**

## NƏTİCƏ

♦ Oktyabr ayında baş verən hadisələri respondentlərın mütləq əksəriyyəti vacib hesab edir. Bu hadisələr arasında ən çox rəğbət doğuranlar Prezidentin "Valday" Beynəlxalq Diskussiya Klubunda cıxışı və Aşqabadda Ermənistanın faşizmi qəhrəmanlaşdırmasına kəskin etiraz nitqi olmuşdur.

♦ Prezidentin ordu quruculuğu, xarici siyasət və kadr islahatları istiqamətindəki fəaliyyəti respondentlər tərəfindən daha yüksək qiymətləndirilir. Sorğu iştirakçıları təhlükəsizlik və Silahlı Qüvvələr məsələsinə daim həssaslıq göstərirlər. Lakin sosial-iqtisadi sahədəki fəaliyyətə əhalinin razılıq dərəcəsi bir qədər aşağıdır.

♦ Respondentlərin nəzərində oktyabr ayında başlanan islahatların uğurla həyata keçirilməsinə əsas maneə məmurlar, yerli hakimiyyət orqanları və bəzi dövlət qurumlarının laqeyd yanaşmasıdır. Başqa sözlə, sorğuda iştirak edənlərin müəyyən bir hissəsi bu qənaətdədir ki, islahatların uğurlu icrası üçün dövlət qurumlarının özlərinin fəaliyyətində dəyişiklik olmalıdır.

♦ Kadr və struktur islahatları respondentlərin böyük əksəriyyətinin gözləntilərini doğruldub və onların əsas gözləntiləri gənc nəsil üçün yeni perspektivlərin və imkanların yaradılması olub.

♦ İqtisadiyyat sahəsində gözləntilər yenə də bir qədər aşağı olub, belə ki, iqtisadiyyatda şəffaflıq tədbirlərinin artması gözləntisi olan respondentlər azlıq təşkil edir.

♦ Hökumətdə təmsil olunan yaşlı nəslin daha gənc kadrlarla əvəz olunması da respondentlər tərəfindən müsbət qarşılanıb.

♦ Ölkə Prezidentinin fəaliyyətində ictimai rəyin rolunun yüksək olması sorğunun nəticələri ilə təsdiqini tapır və bu fikir aparılan kadr islahatlarına da aid edilir.

♦ Əhali oktyabr ayında Prezidentin daxili və beynəlxalq müstəvidəki fəaliyyətini yüksək qiymətləndirir, ona olan etimadın artdığını qeyd edir. Ümumilikdə oktyabr ayını vətəndaşlar ölkəmiz üçün uğurlu sayır.

# QEYDLƏR

# QEYDLƏR

# QEYDLƏR

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

Azərbaycan Respublikası, AZ1006, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç.,18
Telefon: (+994 12) 510-70-78; (+994 12) 510-23-75; (+994 12) 510-70-69

info@stm.az www.stm.az